**“Assist Finance İnvestisiya Şirkəti ” Açıq Səhmdar**

**Cəmiyyəti 2024-cü il üzrə**

**İLLİK HESABAT**

| | |
|---|---|
| 1.Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi: | Emitentin tam adı: “Assist Finance İnvestisiya Şirkəti ” Açıq Səhmdar Cəmiyyəti;<br>Emitentin qısaldılmış adı: “Assist Finasnce İnvestisiya Şirkəti ” ASC<br>Dövlət qeydiyyat tarixi: 15.02.2018<br>Dövlət qeydiyyat nömrəsi (VÖEN): 2004868781 |
| 2. Emitentin hüquqi ünvanı və olduğu yer: | Ünvan: AZ1025, Azərbaycan Respublikası, Bakı şəhəri, Xocalı pr 37 |
| 3.Emitentin adında dəyişikliklər olduqda , emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölunməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradılıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları: | Olmayıb |
| 4.Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar: | Yoxdur |
| 5.Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; | Yoxdur |
| 6.Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı: | Deyil |
| 7.Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri: | İnvestisiya şirkəti |
| 8.Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri: | 12 oktyabr 2018-cu il tarixli İŞ-03 saylı investisiya fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyası.<br>Fəaliyyət növləri:<br>Əsas investisiya xidmətləri (əməliyyatları) aşağıdakılardır:<br>- Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;<br>- Fərdi investorların portfelinin idarə edilməsi;<br>- İnvestisiya məsləhətlərinin verilməsi;<br>- Qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi |

| | |
|---|---|
| | və anderraytinqi;<br>- Qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;<br>- Mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;<br>- Marja ticarəti.<br>Yardımçı investisiya xidmətləri (əməliyyatları):<br>- Müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;<br>- İnvestorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;<br>- Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;<br>- Təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi;<br>- Əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.<br><br>Lisenziya müddətsizdir. |
| 9.Emitentin təklif etdiyi məhsullar və xidmətlər: | Əsas investisiya xidmətləri (əməliyyatları) aşağıdakılardır:<br>- Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;<br>- Fərdi investorların portfelinin idarə edilməsi;<br>- İnvestisiya məsləhətlərinin verilməsi;<br>- Qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;<br>- Qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;<br>- Mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;<br>- Marja ticarəti.<br>Yardımçı investisiya xidmətləri (əməliyyatları):<br>- Müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;<br>- İnvestorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;<br>- Qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;<br>- Təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi; |

| | |
|---|---|
| | - Əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.<br>. |
| 10.Emitentin işçilərinin sayı və onun rüblük dinamikası: | İşci sayı:11 nəfər<br>Rüblük dinamika-13 nəfər |
| 11.Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı; | Müşahidə Şurası:<br>Cəfərov Ruslan Nazim (sədr)<br>Xəlilov Nicat Nizami(üzv)<br><br>Direktor : İbrahimov Cəfər Qaməddin<br>Direktor müavini:Məmmədova Elvira Xanlar<br><br>Audit Komitəsi:<br>Novruzov Ilham (sədr)<br>Cəfərov Nazim (üzv) |
| 12.Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı; | 100% payçı-Ruslan Cəfərov Nazim oğlu-1 nəfər |
| 13.Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | 100% payçı-Ruslan Cəfərov Nazim oğlu-1143 ədəd səhmə sahibdir.<br>Nizamnamə kapitalında emitentin payı-100% |
| 14.Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | - |
| 15.Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: | |
| 15.1. Yığıncağın keçirilmə tarixi və yeri (ünvanı); | 1. 15.04.2024- cü il Assist Finance İnvestisisya şirkətinin ASC-nin Səhmdarlarının Ümumi Yığıncağının Qərarı |
| 15.2. Ümumi yığıncaqda qəbul edilmiş qərarlar; | -2024-cü il üzrə xüsusi əhəmiyyətli əqdin bağlanılması haqqında<br>-Xalis mənfəətin bölüşdürülməsi haqqında |
| 16.Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir): | 1 143 ədəd adi səhm |
| 16.1.investisiya qiymətli kağızın növü və forması: | 1 143 ədəd sənədsiz adlı adi səhm |
| 16.2.investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi: | dövlət qeydiyyat nömrəsi: AZ1001020366<br>qeydiyyat tarixi: 25 aprel 2018-ci il |

| | |
|---|---|
| 16.3.investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri: | 1 143 ədəd sənədsiz adlı adi səhm<br>bir səhmin nominal dəyəri: 350 manat |
| 16.4.investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri: | Sənədsiz adlı adi səhm : 400 050 AZN |
| 16.5.hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir): | 2024-cü il ərzində bütün növ səhmlər üzrə 608.102 manat dividend ödənilmişdir. |
| 16.6.faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi: | Buraxılmamışdır. |
| 16.7. investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda): | Adi adlı səhmlər Bakı Fond Birjasında buraxılmışdır.<br>Ünvan : Həsənbəy Zərdabi 2A |
| 17. emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:<br><br>17.1. əqdin məbləği;<br><br>17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | Emitent tərəfindən 2024-cü il ərzində bağlanılmış xüsusi əhəmiyyətli əqdlərin həcmi 236,664,367.28 manat təşkil edir.<br>Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi mövcud deyildir. |
| 18. emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br><br>18.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br><br>18.2. aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | - |
| 19. illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi: | "Assist Finance İnvestisiya Şirkəti" ASC-nin Səhmdarlarının 15.04.2024-cu il tarixli Növbəti Ümumi Yığıncağı |
| 20. hesabatın açıqlanma mənbəyi haqqında məlumat | Bakı Fond Birjasının rəsmi saytı<br>"Assist Finance İnvestisiya Şirkəti" ASC-nin rəsmi saytı |

**Təsdiq etdi:**

**Assist Finance İnvestisiya Şirkəti ASC-nin direktoru**

____________________________**M. Y.**

**İbrahimov Cəfər**

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti ASSIST FINANCE İNVESTİSİYA ŞİRKƏTİ Open Joint-Stock Company Azerbaijan Republic

# "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti

31 dekabr 2024-cü il tarixində bitən il üzrə

Maliyyə Hesabatları
və Müstəqil Auditorun Hesabat

Davud Mamedov
Accounting, Financial Advisory

## Mündəricat

Müstəqil auditorun hesabatı ........ 3
Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat ........ 5
Maliyyə vəziyyəti haqqında hesabat ........ 6
Kapitalda dəyişikliklər haqqında hesabat ........ 7
Pul hərəkətləri haqqında hesabat ........ 8
1. Giriş ........ 9
2. Uçot siyasətləri ........ 10
3. Mühüm mühakimələr və təxminlər ........ 28
4. Əməliyyat gəliri ........ 29
5. Haqq və komissiya xərcləri ........ 29
6. İşçi heyəti ilə bağlı xərclər ........ 30
7. Digər əməliyyat xərcləri ........ 30
8. Faiz xərcləri ........ 31
9. Mənfəət vergisi ........ 31
10. Pul və pul ekvivalentləri ........ 32
11. Ticarət hesabında olan pul vəsaitləri ........ 32
12. Yüklü olan maliyyə aktivləri ........ 32
13. Investisiya qiymətli kağızları ........ 33
14. Debitor borclar ........ 33
15. Müştərilərin investisiya portfeli ........ 33
16. İstifadə hüquqları ........ 34
17. Əsas vəsaitlər ........ 35
18. Qeyri-maddi aktivlər ........ 36
19. Kreditor borcları ........ 36
20. Müştərilərə ödəniləcək vəsaitlər ........ 37
21. Repo müqavilələri əsasında borc alınmış vəsaitlər ........ 37
22. Lizinq öhdəlikləri ........ 38
23. Qisamüddətli investisiyalar üzrə öhdəliklər ........ 38
24. Səhmdar kapitalı ........ 38
24. Maliyyə risklərinin idarə edilməsi ........ 39

+994 12 404 8548
mail@davudmamedov.com
AZ1065, J.Jabbarli 44, Caspian Plaza, 16-th floor

## Müstəqil auditorun hesabatı

"Assist Finance İnvestisiya Şirkəti" ASC-in səhmdarlarına və rəhbərliyinə

### Rəy

Biz "Assist Finance İnvestisiya Şirkəti" ASC-in (bundan sonra "Şirkət") 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitən il üzrə mənfəət və ya zərər və digər ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətləri daxil olmaqla qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə olunmuş maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartları ("BAS") əsasında aparmışıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın "Auditorun maliyyə hesabatlarının auditi üzrə məsuliyyəti" bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları daxil olmaqla) ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Şirkətdən müstəqillik və MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu rəyin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

**Rəhbərliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin maliyyə hesabatlarına dair məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-na uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin saxtakarlıq və ya səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması üçün zəruri saydığı daxili nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik Şirkəti ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunu fasiləsizlik prinsipi əsasında aparmasına görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri olan şəxslər Şirkətin maliyyə hesabatlılığı prosesinə nəzarət edir.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində yarana biləcək əhəmiyyətli təhriflərin olmamasına dair yetərli əminlik əldə etmək və auditorun hesabatında bu barədə rəy bildirməkdir. Yetərli əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində yarana bilər və fərdi ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatlarının əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli sayılır.

Aparılmış audit və onun nəticəsində təqdim edilmiş bu audit hesabatı üzrə məsuliyyət daşıyan auditor Davud Məmmədovdur.

25 aprel 2025

Bakı, Azərbaycan

"Assist Finance İnvestisiya Şirkəti" ASC
31 dekabr 2024-cü il tarixində bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat
(min Azərbaycan manatı ilə)

| | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| Əməliyyat gəliri | 4 | 2,161 | 1,625 |
| **CƏMİ GƏLİRLƏR** | | **2,161** | **1,625** |
| Haqq və komissiya xərcləri | 5 | (404) | (301) |
| İşçi heyəti ilə bağlı xərclər | 6 | (282) | (222) |
| Digər əməliyyat xərcləri | 7 | (271) | (245) |
| **CƏMİ ƏMƏLİYYAT XƏRCLƏRİ** | | **(957)** | **(768)** |
| **XALİS ƏMƏLİYYAT MƏNFƏƏTİ** | | **1,204** | **857** |
| Faiz gəlirləri | | 26 | 26 |
| Faiz xərcləri | 8 | (351) | (65) |
| İnvestisiya gəliri | | - | 6 |
| Xarici valyuta məzənnələri üzrə fərqlər | | (3) | (3) |
| **CƏMİ QEYRİ-ƏMƏLİYYAT GƏLİRLƏRİ VƏ XƏRCLƏRİ** | | **(328)** | **(36)** |
| **VERGİDƏN ƏVVƏLKİ MƏNFƏƏT** | | **876** | **821** |
| Mənfəət vergisi | 9 | (176) | (164) |
| **XALİS MƏNFƏƏT** | | **700** | **657** |

Rəhbərlik adından:

Cəfər İbrahimov
Direktor

"Assist Finance İnvestisiya Şirkəti" ASC
31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabat
(min Azərbaycan manatı ilə)

| | Qeyd | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|---|
| Pul və pul ekvivalentləri | 10 | 228 | 136 |
| Ticarət hesabında olan pul vəsaitləri | 11 | 10 | 110 |
| Yüklü olan maliyyə aktivləri | 12 | 6,500 | 1,001 |
| Investisiya qiymətli kağızları | 13 | 1,110 | 1,080 |
| Debitor borcları | 14 | 41 | 51 |
| Müştərilərin investisiya portfeli | 15 | 985 | 21 |
| **CƏMİ CARİ AKTİVLƏR** | | **8,874** | **2,399** |
| İstifadə hüquqları | 16 | 112 | 166 |
| Əsas vəsaitlər | 18 | 11 | 9 |
| Qeyri-maddi aktivlər | 18 | 96 | 96 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **219** | **271** |
| **CƏMİ AKTİVLƏR** | | **9,093** | **2,670** |
| Kreditor borcları | 19 | 48 | 51 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 20 | 124 | 112 |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 21 | 6,546 | 1,032 |
| Qısamüddətli investisiyalar üzrə öhdəliklər | 23 | 872 | - |
| Lizinq öhdəlikləri | 22 | 56 | 63 |
| Mənfəət vergisi üzrə öhdəlik | | 66 | 143 |
| Digər öhdəliklər | | 15 | 11 |
| **CƏMİ CARİ ÖHDƏLİKLƏR** | | **7,727** | **1,412** |
| Lizinq öhdəlikləri | 22 | 24 | 58 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 9 | 10 | 10 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **34** | **68** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **7,761** | **1,480** |
| Səhmdar kapitalı | 24 | 400 | 350 |
| Bölüşdürülməmiş mənfəət | | 932 | 840 |
| **CƏMİ KAPİTAL** | | **1,332** | **1,190** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **9,093** | **2,670** |

Rəhbərlik adından:

Cəfər Ibrahimov

Direktor

| | Qeyd | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət | CƏMİ |
|---|---|---|---|---|
| **31 DEKABR 2022-Cİ İL TARİXİNƏ QALIQ** | | **1,000** | **383** | **1,383** |
| Elan edilmiş dividendlər | | - | (200) | (200) |
| Nizamnamə kapitalında azalma | | (650) | - | (650) |
| İl üzrə mənfəət | | - | 657 | 657 |
| **31 DEKABR 2023-CÜ İL TARİXİNƏ QALIQ** | | **350** | **840** | **1,190** |
| Elan edilmiş dividendlər | | - | (608) | (608) |
| Kapital qoyuluşu | | 50 | - | 50 |
| İl üzrə mənfəət | | - | 700 | 700 |
| **31 DEKABR 2024-CÜ İL TARİXİNƏ QALIQ** | | **400** | **932** | **1,332** |

Rəhbərlik adından:

Cəfər Ibrahimov
Direktor

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti ASSIST FINANCE İNVESTİSİYA ŞİRKƏTİ Open Joint-Stock Company Azerbaijan Republic

"Assist Finance İnvestisiya Şirkəti" ASC
31 dekabr 2024-cü il tarixində bitən il üzrə pul hərəkətləri haqqında hesabat
(min Azərbaycan manatı ilə)

| | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| Müştərilərə ödənişlər | | (3,934,280) | (2,377,450) |
| Müştərilərdən mədaxil | | 3,937,195 | 2,378,059 |
| Bazar iştirakçıları və təchizatçılara ödənişlər | | (1,384) | (897) |
| Faiz gəlirləri | | 26 | 26 |
| Faiz xərcləri | | (310) | (62) |
| Dövlət büdcəsinə ödənişlər | | (361) | (114) |
| İşçilərə ödənişlər | | (181) | (151) |
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ XALİS PUL HƏRƏKƏTİ** | | **705** | **(589)** |
| Əsas vəsaitlərin alışı | | (4) | (3) |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ XALİS PUL HƏRƏKƏTİ** | | **(4)** | **(3)** |
| Ödənilmiş dividendlər | | (608) | (200) |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ XALİS PUL HƏRƏKƏTİ** | | **(608)** | **(200)** |
| **PUL VƏ PUL EKVİVALENTLƏRİNDƏ XALİS DƏYİŞİKLİK** | | **93** | **(792)** |
| Məzənnə fərqlərin təsiri | | (1) | - |
| **DÖVRÜN ƏVVƏLİNƏ PUL VƏ PUL EKVİVALENTLƏRİ** | **10** | **136** | **928** |
| **DÖVRÜN SONUNA PUL VƏ PUL EKVİVALENTLƏRİ** | **10** | **228** | **136** |

Rəhbərlik adından:

Cəfər Ibrahimov
Direktor

# 1. Giriş

"Assist Finance İnvestisiya Şirkəti" ASC (bundan sonra "Şirkət") 15 fevral 2018-ci il tarixində Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq təsis edilmiş açıq səhmdar cəmiyyətidir. Şirkət dövlət qeydiyyatına 2004868781 VÖEN-i ilə alınmışdır. Şirkətin baş ofisi AZ1025, Bakı şəhəri Xətai rayonu, Xocalı pr., ev 37, Dəmirçi Plaza ünvanında yerləşir. "Assist Finance İnvestisiya Şirkəti" ASC 15 fevral 2018-ci il tarixində Azərbaycan Respublikasında qeydiyyata alınmış və təsis olunmuş "BTB Kapital İnvestisiya Şirkəti" ASC-nin hüquqi varisidir. "BTB Kapital İnvestisiya Şirkəti" ASC-yə Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş 12 oktyabr 2018-ci il tarixli İŞ-03 saylı investisiya şirkəti fəaliyyətinə lisenziya əvəzinə hüquqi varis olan Cəmiyyət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 20 iyun 2023-cü il tarixində verilmiş lisenziya əsasında fəaliyyət göstərir.

Şirkətin əsas fəaliyyəti Azərbaycan Respublikasında qiymətli kağızlar bazarına, eləcə də beynəlxalq səviyyədə maliyyə bazarları alətlarinə investisiya yatırmaq istəyən müştərilərə vasitəçilik xidmətləri və diler xidmətlərinin göstərilməsindən ibarətdir. 31 dekabr 2024-cü il tarixinə Şirkətdə 2023-cü ilin dekabr ayına nisbətən 33 faiz işçi artımı baş vermişdir.

Şirkət tərəfindən göstərilən əsas investisiya xidmətləri aşağıdakılardır:

- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;
- fərdi investorların portfelinin idarə edilməsi;
- investisiya məsləhətlərinin verilməsi;
- qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;
- qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;
- mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;
- marja ticarəti;
- yardımçı investisiya xidmətləri.

## 2. Uçot siyasətləri

### *Tərtibatın əsasları*

Şirkətin hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibatlıq Standartları Şurası ("BMSŞ") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmışdır.

Maliyyə hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır. Başqa qeyd olmazsa maliyyə hesabatlarının bütün məbləğləri min Azərbaycan manatı ilə təqdim edilir.

Rəhbərlik maliyyə hesabatlarını təsdiq edərkən, Şirkətin yaxın gələcəkdə fəaliyyətini davam etdirmək üçün adekvat resurslara malik olduğuna dair əsaslı gözləntilərə malikdir. Beləliklə, Şirkət maliyyə hesabatlarını onun fəaliyyətini fasiləsiz olaraq davam etdirəcəyi əsasında hazırlamışdır.

### *Xarici valyutalar*

Şirkətin maliyyə hesabatlarını onun funksional valyutası olan Azərbaycan manatı ilə təqdim olunur.

Xarici valyuta ilə əməliyyatlar ilkin olaraq əməliyyatın tanınma hüququ qazandığı tarixdə müvafiq əməliyyat valyutanın spot məzənnələri ilə qeydə alınır. Hesabat tarixində xarici valyutada ifadə olunmuş monetar aktivlər və öhdəliklər hesabat tarixinə əməliyyat valyutanın spot məzənnələri ilə çevrilir.

| Valyuta | 31 dekabr 2024 | 31 dekabr 2023 |
|---|---|---|
| USD | 1.7000 | 1.7000 |
| EUR | 1.7724 | 1.8766 |

Bu cür əməliyyatların ödənilməsindən və monetar aktivlərin və öhdəliklərin çevrilməsindən yaranan bütün gəlir və zərərlər xalis əsasda mənfəət və ya zərərdə tanınır. Xarici valyutada ilkin dəyər ilə ölçülən qeyri-monetar maddələr təkrar çevrilmir. Borclara aid olan valyuta məzənnələrindən gələn gəlir və zərərlər maliyyə xərcləri daxilində mənfəət və ya zərər haqqında hesabatda təqdim olunur.

### *Cari və ya uzunmüddətli kateqoriyaya təsnifat*

Şirkət aktivləri və öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatda cari/uzunmüddətli təsnifatına əsasən təqdim edir. Aşağıdakı hallarda aktivlər cari aktiv kimi təsnif edilir:

- Adi əməliyyat dövründə satılmaq və ya istifadə üçün saxlanıldıqda və ya realizasiya olunması ehtimal olunduqda;

• Əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;

• Hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya

• Hesabat tarixindən sonra ən az on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnif edilir.

Öhdəlik aşağıdakı hallarda cari hesab olunur:

• Ödənilməsi adi əməliyyat dövründə nəzərdə tutulduqda;
• Əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
• Hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
• Öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

Şirkət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər kimi təsnif edir.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri uzunmüddətli aktivlər və öhdəliklər kimi təsnif edilir.

***Gəlir***

Səhmlər və ya digər qiymətli kağızların alınması, yaxud biznes müəssisələrinin alınması və ya satılması zamanı aparılan danışıqlar, verilən məsləhətlər, təlimlər və ya üçüncü tərəflər üçün danışıqlarda iştirak etmək nəticəsində yaranmış və əsas əməliyyatın icrası zamanı qazanılmış komissiyalar və haqlar icra başa çatdığı zaman uçota alınır.

Bütün borc alətləri üzrə faiz gəlirləri mənfəət və ya zərər haqqında hesabatda effektiv faiz metodundan istifadə etməklə hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

***Əsas vəsaitlər***

Əsas vəsaitlər, yığılmış amortizasiya və varsa, yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla, ilkin dəyərlə göstərilir. Tarixi maya dəyərinə obyektlərin alınması ilə birbaşa əlaqəli olan xərclər daxildir. Sonrakı məsrəflər aktivin balans dəyərinə daxil edilir və ya müvafiq olaraq, yalnız həmin maddə ilə bağlı gələcək iqtisadi səmərələrin Şirkətə daxil olması ehtimalı olduqda və həmin maddənin dəyəri etibarlı şəkildə ölçülə bildikdə, ayrıca aktiv kimi tanınır. Ayrı-ayrı aktiv kimi uçota alınan hər hansı komponentin

balans dəyəri dəyişdirildikdə tanınması dayandırılır. Bütün digər təmir və texniki xidmətlər baş verdikləri hesabat dövründə mənfəət və ya zərərə aid edilir.

Amortizasiya aşağıdakı kimi aktivlərin təxmin edilən faydalı istifadə müddəti üzrə düz xətt əsasında hesablanır:

| Aktivin kateqoriyası | Faydalı istismar müddəti |
|---|---|
| Kömputer avadanlıqları | 5 il |
| Mebel və qurğular | 5 il |

Təxmin edilən faydalı xidmət müddətləri, qalıq dəyərlər və amortizasiya metodu hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və təxminlərdə hər hansı dəyişikliklərin təsiri perspektiv əsaslarla nəzərə alınır.

Əsas vəsaitlər obyekti xaric edildikdə və ya aktivin davamlı istifadəsindən gələcək iqtisadi səmərə gözlənilmədikdə tanınır. Aktivin xaric edilməsi və ya silinməsi nəticəsində yaranan gəlir və ya zərər satışdan əldə olunan gəlirlə aktivin balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərdə tanınır.

### *Yüklü olan maliyyə aktivləri*

Ayrılıqda alınmış yüklü olan maliyyə aktivləri ilkin tanınma zamanı ilkin dəyərlə ölçülür. İlkin tanındıqdan sonra yüklü olan maliyyə aktivləri hər hansı yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə uçota alınır. Kapitallaşdırılmış inkişaf xərcləri istisna olmaqla, daxili şəkildə yaradılan yüklü olan maliyyə aktivləri kapitallaşdırılmır və müvafiq xərclər xərclərin çəkildiyi dövrdə mənfəət və ya zərərdə əks etdirilir.

Yüklü olan maliyyə aktivləriin faydalı istifadə müddəti sonlu və ya qeyri-müəyyən müddət kimi qiymətləndirilir. Məhdud istifadə müddəti olan yüklü olan maliyyə aktivləri faydalı iqtisadi istifadə müddəti ərzində amortizasiya edilir və aktivin dəyərsizləşə biləcəyinə dair əlamətlər olduqda dəyərsizləşmə üçün qiymətləndirilir. Məhdud faydalı istifadə müddəti olan qeyri-maddi aktiv üçün amortizasiya müddəti və amortizasiya metodu ən azı hər hesabat dövrünün sonunda nəzərdən keçirilir. Gözlənilən faydalı istifadə müddətində və ya aktivdə təcəssüm olunan gələcək iqtisadi səmərələrin gözlənilən istehlak modelində dəyişikliklər müvafiq hallarda amortizasiya müddətinə və ya metoduna dəyişiklik etmək üçün nəzərdə tutulur və uçot təxminlərində dəyişikliklər kimi nəzərə alınır. Son istifadə müddəti olan yüklü olan maliyyə aktivləri üzrə amortizasiya xərcləri mənfəət və ya zərər haqqında hesabatda tanınır.

Qeyri-müəyyən faydalı istifadə müddəti olan yüklü olan maliyyə aktivləri amortizasiya edilmir, lakin hər il fərdi və ya pul vəsaitlərini yaradan vahidlər səviyyəsində dəyərsizləşmə üçün yoxlanılır. Qeyri-müəyyən ömrün qiymətləndirilməsi qeyri-müəyyən ömrün dəstəklənməyə davam edib-etmədiyini müəyyən etmək üçün hər il nəzərdən keçirilir. Əks halda, faydalı istifadə müddətinin qeyri-müəyyən müddətdən sonluya dəyişməsi perspektiv əsasda həyata keçirilir.

Qeyri-maddi aktiv xaric edildikdə (yəni, alıcının nəzarəti əldə etdiyi tarixdə) və ya onun istifadəsi və ya xaric edilməsindən gələcək iqtisadi səmərə gözlənilmədikdə tanınması dayandırılır. Aktivin tanınmasının dayandırılması zamanı yaranan hər hansı gəlir və ya zərər (aktivin xaric edilməsindən əldə edilən xalis gəlirlə balans dəyəri arasında fərq kimi hesablanır) mənfəət və ya zərər hesabatına daxil edilir.

***Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi***

Şirkət hər hesabat tarixində aktivin dəyərsizləşməsinə dair əlamətin olub-olmamasını qiymətləndirir. Hər hansı əlamət mövcud olduqda və ya aktiv üçün illik dəyərsizləşmə testi tələb olunduqda, Şirkət aktivin bərpa edilə bilən dəyərini təxmin edir. Aktivin bərpa oluna bilən dəyəri aktivin və ya CGU-nun xaric edilmə xərcləri çıxılmaqla ədalətli dəyərindən və onun istifadə dəyərindən daha yüksək olanıdır. Bərpa edilə bilən məbləğ, aktiv digər aktivlərdən və ya aktiv qruplarından əhəmiyyətli dərəcədə asılı olmayan pul vəsaitlərinin daxilolmaları yaratmadığı halda, fərdi aktiv üçün müəyyən edilir. Aktivin və ya KGİ-nin balans dəyəri onun bərpa edilə bilən dəyərindən artıq olduqda, aktiv dəyərsizləşmiş hesab edilir və bərpa edilə bilən dəyərə qədər silinir.

İstifadə dəyərinin qiymətləndirilməsində, təxmin edilən gələcək pul vəsaitlərinin hərəkəti pulun vaxt dəyərinin və aktivə xas olan risklərin cari bazar qiymətləndirmələrini əks etdirən vergidən əvvəlki diskont dərəcəsindən istifadə etməklə onların cari dəyərinə diskont edilir. Satış xərcləri çıxılmaqla ədalətli dəyərin müəyyən edilməsində son bazar əməliyyatları nəzərə alınır. Əgər belə əməliyyatlar müəyyən edilə bilməzsə, müvafiq qiymətləndirmə modelindən istifadə edilir. Bu hesablamalar qiymətləndirmə qatları, açıq şəkildə satılan şirkətlər üçün kotirovka edilmiş səhm qiymətləri və ya digər mövcud ədalətli dəyər göstəriciləri ilə təsdiqlənir.

Şirkət dəyərsizləşmənin hesablanmasını ən son büdcələrə və fərdi aktivlərin bölüşdürüldüyü Şirkətin hər biri üçün ayrıca hazırlanmış proqnoz hesablamalarına əsaslanır. Bu büdcələr və proqnoz hesablamaları ümumiyyətlə beş illik dövrü əhatə edir. Uzunmüddətli artım tempi hesablanır və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkətini layihələndirmək üçün tətbiq edilir.

Davam edən əməliyyatlar üzrə dəyərsizləşmə zərərləri, əvvəllər DMG-də yenidən qiymətləndirmə ilə yenidən qiymətləndirilmiş əmlaklar istisna olmaqla, mənfəət və ya zərər haqqında hesabatda tanınır. Bu cür əmlaklar üçün dəyərsizləşmə əvvəlki hər hansı yenidən qiymətləndirmənin məbləğinə qədər DMG-də tanınır.

Qudvil istisna olmaqla aktivlər üçün, əvvəllər tanınmış dəyərsizləşmə zərərlərinin artıq mövcud olmadığı və ya azaldığına dair əlamətin olub-olmadığını müəyyən etmək üçün hər hesabat tarixində qiymətləndirmə aparılır. Belə bir əlamət mövcud olarsa, Şirkət aktivin və ya CGU-nun bərpa edilə bilən məbləğini təxmin edir. Əvvəllər tanınmış dəyərsizləşmə zərəri yalnız sonuncu dəyərsizləşmə zərərinin tanınmasından sonra aktivin bərpa edilə bilən dəyərini müəyyən etmək üçün istifadə edilən fərziyyələrdə dəyişiklik olduqda ləğv edilir. Aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərini və ya əvvəlki illərdə aktiv üçün dəyərsizləşmə zərəri tanınmasaydı, amortizasiya çıxılmaqla müəyyən ediləcək balans dəyərindən artıq olmamaq üçün məhdudlaşdırılır. Aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçota alınmadıqda, bu cür ləğv mənfəət və ya zərər haqqında hesabatda tanınır və bu halda, ləğvetmə yenidən qiymətləndirmə artımı kimi nəzərə alınır.

***İcarə***

Şirkət qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanınma və ölçmə yanaşmasını tətbiq edir. Şirkət icarə ödənişlərini həyata keçirmək üçün lizinq öhdəliklərini və əsas aktivlərdən istifadə hüquqlarını təmsil edən istifadə hüququ tanıyır.

<u>İstifadə hüquqları</u>

Şirkət istifadə hüquqlarını icarənin başlandığı tarixdə tanıyır (yəni, əsas aktivin istifadəyə verildiyi tarix). İstifadə hüquqları yığılmış amortizasiya və dəyərsizləşmə itkiləri çıxılmaqla ilkin dəyərlə ölçülür və lizinq öhdəliklərinin hər hansı yenidən ölçülməsinə düzəliş edilir. İstifadə hüquqlarının dəyərinə tanınan lizinq öhdəliklərinin məbləği, çəkilmiş ilkin birbaşa məsrəflər və alınan hər hansı icarə stimulları çıxılmaqla, başlama tarixində və ya ondan əvvəl həyata keçirilmiş icarə ödənişləri daxildir. İstifadə hüquqları icarə müddəti və aktivlərin təxmin edilən faydalı istifadə müddətindən daha qısa olanı əsasında düz xətt əsasında amortizasiya edilir.

İcarəyə götürülmüş aktivin mülkiyyət hüququ icarə müddətinin sonunda Şirkətə keçirsə və ya dəyəri satınalma opsiyasının həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı istifadə müddətindən istifadə etməklə hesablanır. İstifadə hüquqları də dəyərsizləşməyə məruz qalır.

Lizinq öhdəlikləri

İcarənin başladığı tarixdə Şirkət icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin diskontlaşdırılmış dəyəri ilə ölçülən lizinq öhdəliklərini tanıyır. İcarə ödənişlərinə hər hansı icarə üzrə debitor borcları çıxılmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla), indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri və qalıq dəyər zəmanətləri altında ödənilməsi gözlənilən məbləğlər daxildir. İcarə ödənişlərinə, həmçinin, Şirkət tərəfindən həyata keçiriləcəyi ağlabatan şəkildə müəyyən edilən satınalma opsionunun icra qiyməti və icarə müddəti Şirkətin ləğv etmək opsiyasından istifadə etdiyini əks etdirirsə, icarəyə xitam verilməsi üçün cərimələrin ödənişlərini də əhatə edir.

İndeksdən və ya dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri ödənişi şərtləndirən hadisə və ya vəziyyətin baş verdiyi dövrdə xərclər kimi tanınır (ehtiyatların istehsalı üçün çəkilmədiyi halda).

İcarə ödənişlərinin diskontlaşdırılmış dəyərini hesablayarkən Şirkət icarənin başlanması tarixində artan borc faizindən istifadə edir, çünki icarədə nəzərdə tutulan faiz dərəcəsi asanlıqla müəyyən edilə bilməz. Başlama tarixindən sonra lizinq öhdəliklərinin məbləği faizlərin yığılmasını əks etdirmək üçün artırılır və edilən icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə müddətində dəyişiklik, dəyişiklik, icarə ödənişlərində dəyişiklik (məsələn, belə icarə ödənişlərini müəyyən etmək üçün istifadə olunan indeks və ya dərəcənin dəyişməsi nəticəsində gələcək ödənişlərə dəyişikliklər) və ya əsas aktivin alınması üçün opsionun qiymətləndirilməsində dəyişiklik olduqda lizinq öhdəliklərinin balans dəyəri yenidən ölçülür.

Qısamüddətli icarə və aşağı dəyərli aktivlərin icarəsi

Şirkət qısamüddətli icarənin tanınması azadlığını müxtəlif aktivlərin qısamüddətli icarələrinə tətbiq edir (yəni, icarə müddəti başlama tarixindən etibarən 12 ay və ya daha az olan və satınalma seçimini ehtiva etməyən icarələr). O, həmçinin aşağı dəyərli aktivlərin icarəsinə tanınma azadlığını aşağı dəyərli hesab edilən aktivlərin icarəsinə tətbiq edir. Qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi üzrə icarə ödənişləri icarə müddəti ərzində düz xətt metodu əsasında xərc kimi tanınır.

### ***Pul və pul ekvivalentləri***

Pul və pul ekvivalentləri banklardakı və kassadakı nağd pul vəsaitləri, banklardakı və digər maliyyə institutlarındakı tələbsiz əmanətlər və üç ay və ya daha az müddətə qısamüddətli yüksək likvidli, asanlıqla məlum məbləğdə pul vəsaitinə çevrilə bilən və dəyər dəyişikliyi riskinə məruz qalan qısamüddətli investisiyalardan ibarətdir. Pul və

pul ekvivalentləri investisiya və ya digər məqsədlər üçün daha çox qısamüddətli pul öhdəliklərini yerinə yetirmək məqsədi ilə həyata keçirilir.

***Debitor borclar***

Debitor borclar adi iş prosesində satılan mallara və ya göstərilən xidmətlərə görə müştərilərdən alınacaq məbləğlərdir. Onlar ümumiyyətlə bir ay ərzində ödənilməlidir və buna görə də hamısı cari kimi təsnif edilir.

Debitor borclar o zaman tanınır ki, Şirkətin kompensasiya almaq üçün qeyd-şərtsiz hüququ var və bu kompensasiyanın ödənilməsi vaxtı çatana qədər yalnız vaxtın keçməsi tələb olunur. Əhəmiyyətli maliyyə komponenti olmayan debitor borclar ilkin olaraq onların əməliyyat qiyməti ilə ölçülür. Əhəmiyyətli maliyyə komponentini və digər debitor borclarını ehtiva edən debitor borclar ilkin olaraq ədalətli dəyər üstəgəl əməliyyat xərcləri ilə ölçülür. Bütün debitor borcları sonradan amortizasiya olunmuş maya dəyərində əks etdirilir.

***Maliyyə aktivləri və öhdəlikləri***

**Maliyyə aktivləri.**

İlkin tanınma zamanı maliyyə aktivi ya amortizasiya edilmiş dəyərdə, ya sair məcmu gəlirlərdə əks olunan ədalətli dəyərdə, ya da mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərdə qiymətləndirilən aktiv kimi təsnif edilir. Maliyyə aktivi aşağıdakı şərtlərə cavab verdikdə və mənfəət və ya zərərdə əks olunan ədalətli dəyər kateqoriyasına aid olmadıqda amortizasiya edilmiş dəyərdə qiymətləndirilir:

- aktiv məqsədi müqavilə üzrə pul vəsaitlərini toplamaq olan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə sırf əsas borc və faiz ödəmələrindən ibarət pul vəsaitlərinin daxil olmasına səbəb olur.

Borc aləti yalnız aşağıdakı şərtlərə cavab verdikdə və mənfəət və ya zərərdə əks olunan ədalətli dəyər kateqoriyasına aid olmadıqda sair məcmu gəlirdə əks olunan ədalətli dəyərdə qiymətləndirilir:

- aktiv məqsədi müqavilə üzrə pul vəsaitlərini toplamaq və maliyyə aktivlərini satmaq olan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas borc və faiz ödəmələrindən ibarət pul vəsaitlərinin daxil olmasına səbəb olur.

Amortizasiya edilmiş dəyərdə ölçülən maliyyə aktivləri kimi mənfəət və ya zərərdə tanınan aşağıdakılar istisna olmaqla, sair məcmu gəlirdə əks olunan ədalətli dəyərdə qiymətləndirilən borc maliyyə aktivləri üzrə mənfəət və zərər sair məcmu gəlirdə tanınır:

- effektiv faiz metodundan istifadə etməklə faiz gəliri;
- gözlənilən kredit zərərləri vəəvəzləşdirm ələr; və
- xarici valyuta mübadiləsi üzrə gəlirlər və zərərlər.

Sair məcmu gəlirdə ədalətli dəyərdə ölçülən borc maliyyə aktivinin tanınması dayandırıldıqda sair məcmu gəlirdə tanınan gəlir və ya zərər cəmi kapitaldan silinərək mənfəət və ya zərərə aid edilir. Ticarət üçün saxlanılmayan kapital investisiyasının ilkin tanınması zamanı Şirkət ədalətli dəyərdə baş verəcək əlaqədar dəyişiklikləri sair məcmu gəlirdə təqdim etmək barədə dəyişməz seçim edə bilər. Bu seçim hər investisiya üçün fərdi qaydada edilir.

Belə kapital alətləri üzrə gəlirlər və zərərlər heç zaman mənfəət və ya zərərdə təkrar təsnif edilmir və mənfəət və ya zərərdə heç bir dəyərsizləşmə tanınmır. Dividendlər mənfəət və ya zərərdə tanınır. İnvestisiya xərclərinin bir qisminin bərpasını aydın əks etdirən dividendlər istisnadır. Belə ki, bu halda onlar sair məcmu gəlirdə tanınır. Sair məcmu gəlirdə tanınan gəlirlər və zərərlərin cəmi investisiya ləğv edilərkən bölüşdürülməmiş mənfəətə köçürülür. Bütün digər maliyyə aktivləri mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərlə qiymətləndirilən kateqoriyasına təsnif edilir.

Biznes modelinin qiymətləndirilməsi

Şirkət aktivin portfel səviyyəsində saxlandığı biznes modelin məqsədini qiymətləndirir, belə ki, bu biznesin necə idarə edildiyini və rəhbərliyə təqdim edilən məlumatı daha yaxşı əks etdirir. Bu zaman aşağıdakı məlumat nəzərə alınır:

-portfel üçün müəyyən edilən siyasət və məqsədlər və bu siyasətlərin təcrübədə tətbiqi. Xüsusilə də rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin qazanılmasına, müəyyən faiz dərəcəsini saxlamağa, maliyyə aktivlərinin müddətinin bu aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırmağa və ya aktivləri satmaqla pul vəsaitlərini reallaşdırmağa yönəldiyi və ya yönəlmədiyi;

-portfelin fəaliyyəti necə qiymətləndirilir və Şirkət rəhbərliyinə necə hesabat verilir;

-biznes modelinin işinə (və bu biznes modeli çərçivəsində saxlanan maliyyə aktivlərinə) təsir göstərən risklər və bu risklər necə idarə edilir;

-biznes rəhbərlərinin haqqı necə ödənilir, məs., bu haqq idarə edilən aktivlərin ədalətli dəyərinə yoxsa müqavilə üzrə yığılan pul vəsaitlərinə əsaslanır və;

-əvvəlki dövrlərdə satış tezliyi, həcmi və vaxtı, belə satışların səbəbi və gələcək satış fəaliyyəti barədə yaratdığı gözləntilər. Bununla belə, satış fəaliyyəti haqqında məlumata ayrıca deyil, Şirkətin maliyyə aktivlərini idarə etmək üçün müəyyən etdiyi məqsədə necə nail olunmasının və pul vəsaitlərinin necə əldə edilməsinin ümumi qiymətləndirilməsinin bir hissəsi kimi baxılır.

Ticarət məqsədləri üçün saxlanılan və ya fəaliyyəti ədalətli dəyər əsasında qiymətləndirilən maliyyə aktivləri mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərdə qiymətləndirilir, belə ki, onlar nə müqavilə üzrə pul vəsaitlərinin toplanması, nə də eyni zamanda həm müqavilə üzrə pul vəsaitlərinin toplanması, həm də maliyyə aktivlərinin satışı üçün saxlanılır.

Müqavilə üzrəpul vəsaitlərinin sırf əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığının qiymətləndirilməsi

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul vəsaitlərinin sırf əsas borc və faiz ödənişləri olub-olmadığını qiymətləndirərkən Şirkət alətin müqavilə şərtlərini nəzərə alır. Bura maliyyə aktivi üzrə müqavilədə pul vəsaitlərinin müddətini və ya məbləğini dəyişərək əsas borc və faiz ödənişi meyarına cavab verməməsinə səbəb olacaq şərtin olub-olmadığının qiymətləndirilməsi daxildir. Qiymətləndirmə zamanı Şirkət aşağıdakıları nəzərə alır:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- maliyyə levereci;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılması şərtləri;
- Şirkətin müəyyən aktivlərdən gələn pul axınlarına olan iddialarını məhdudlaşdıran şərtlər (məs., reqressiz aktivlər); və
- pulun zaman dəyərini dəyişən xüsusiyyətlər, məsələn, faiz dərəcələrinin mütəmadi yenilənməsi.

Təkrar təsnifat

Maliyyə aktivləri Şirkətin maliyyə aktivlərini idarə etdiyi biznes modelini dəyişdikdən sonrakı dövr istisna olmaqla, ilkin tanınmadan sonra təkrar təsnif edilmir.

**Maliyyə öhdəlikləri**

Şirkət maliyyə təminatları və kredit öhdəliklərindən fərqli maliyyə öhdəliklərini amortizasiya edilmiş dəyərdə və ya mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərdə qiymətləndirir. Maliyyə öhdəlikləri (maliyyə təşkilatları və müştərilərin əmanətləri, müddətli borc vəsaitləri və sair maliyyə öhdəlikləri daxil olmaqla) ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərdə, daha sonra effektiv faiz metodu ilə və faiz xərcləri faktiki gəlir əsasında tanınmaqla amortizasiya edilmiş dəyərdə qiymətləndirilir.

Təkrar təsnifat

Maliyyə öhdəlikləri ilkin tanınmadan sonra təkrar təsnif edilmir.

**Tanınmanın dayandırılması**

Maliyyə aktivləri

Şirkət maliyyə aktivini tanımağı o zaman dayandırır ki, maliyyə aktivindən gələn pul vəsaitlərinə olan müqavilə hüquqlarının müddəti bitir və ya əməliyyatda müqavilə üzrə pul vəsaitlərini almaq hüququnu ötürür ki, bu halda maliyyə aktivlərin əsahib olmaqla bağlı bütün risklər və faydalar da ötürülür və ya Şirkət sahibliklə bağlı bütün riskləri və faydaları nə ötürür, nə də özündə saxlayır və maliyyə aktivinə nəzarəti özündə saxlamır.

